# “Modern Construction Group” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

**Konsolidə olunmuş**
**Maliyyə hesabatları və auditor rəyi**
31 dekabr 2018-cı il tarixində tamamlanan il üzrə

“Modern Construction Group”
# MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| Rəhbərliyin Hesabatı | 1 – 3 |
| Müstəqil Auditor Hesabatı | 4 |
| Maliyyə Vəziyyəti haqqında Hesabat | 5 |
| Məcmu gəlir hesabatı | 6 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 7 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 8 |
| Maliyyə hesabatlarına dair Qeydlər | 9 – 27 |

# "Modern Construction Group"
# MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## RƏHBƏRLİYİN HESABATI

**Əsas Fəaliyyət:**

**"Modern Construction Group "** Məhdud Məsuliyyətli Cəmiyyəti və onun törəmə müəssisəsi (**bundan sonra – "Qrup"**) əsas fəaliyyəti geniş çeşidli bina və sənaye tipli tikinti-quraşdırma işləri həyata keçirilməsi fəaliyyətindən ibarətdir.

**Biznes Əməliyyatlarının İcmalı və Fəaliyyətin Gələcək İnkisaf Perspektivləri:**

Qrupun əsas fəaliyyətindən gəliri 31 Dekabr 2018 -cı il tarixdə bitən il üzrə **10 755 038.50** AZN təşkil etmişdir ki, bu da keçən ilin gəlirindən ( 2017-gəlir: **1 339 203.23 AZN**) **9 415 835.27 AZN** çoxdur. Gəlirin keçən ilə nisbətdə artmasına səbəb müştəri bazasına yeni müştərilərin əlavə olunması və yeni iri həcimli layihələrin qazanılması olmuşdur. Qrupun il ərzində gəlirlilik dərəcəsi **16.55%** olmuşdur və xalis gəliri **1 539 158.48 AZN** təşkil etmişdir. Qrupun direktorları gələcək ilin nəticələri üçün nikbindir və Qrupun fəaliyyətini təkmilləşdirməyi ümid edir.

**Səhmdar:**

31 Dekabr 2018-ci il tarixdə bitən il üzrə Səhmdarların səhmdar kapitalında marağı aşağıdakı kimi olmuşdur:

| Səhmdarın adı | Payı (% ilə) | |
|---|---|---|
| | **2018** | **2017** |
| **1. Əliyev Emin Rafayıl oğlu** | **65%** | **65%** |
| **2. Tağıyev Oyrat Elşad oğlu** | **25%** | **25%** |
| **3. Əlibəyli Azər Eldar oğlu** | **10%** | **10%** |

**Fəaliyyətin Fasiləsizliyi:**

Əlavə edilmiş maliyyə hesabatları fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanmışdır. Hesabatları hazırlayarkən menecment Qrupun fasiləsizlik prinsipinə əsasən fəaliyyətini həyata keçirmə qabiliyyətini qiymətləndirmişdir.

Menecment Qrupun fasiləsizlik prinsipinə əsasən fəaliyyətini davam etdirməsinə şübhə yarada biləcək, onları hadisələrlə və vəziyyətlə bağlı qeyri –müəyyənliklərin olmasına inandıracaq hər hansı sübutla qarşılaşmamışdır.

**Balans tarixindən sonrakı hadisələr:**

Rəhbərliyin fikrincə, maliyyə ilinin sonundan maliyyə hesabatlarının hazırlandığı tarixədək olan dövrdə Qrupun bitmiş maliyyə ilinin əməliyyatlarına əhəmiyyətli təsir göstərə biləcək hər hansı əhəmiyyətli və qeyr-adi əməliyyat və ya hadisə baş verməmişdir.

**Auditor:**

Sərbəst Auditor İbrahimov Elnur Elxan oğlu, bizimlə əməkdaşlığı davam etdirmək istəyir və onun yenidən seçilməsi barədə qərar İllik Ümumi Yığıncaqda təklif ediləcəkdir.

## 31 dekabr 2018-ci il tarixinə bitən il üzrə konsolidə olunmuş maliyyə hesabatlarının hazırlanması və təsdiq edilməsi üzrə rəhbərliyin məsuliyyəti haqqında hesabat

Rəhbərlik qrupun 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyətini, əməliyyatlarının nəticələrini və həmin tarixdə bitən il üzrə nağd vəsaitlərinin hərəkətinin hesabatını düzgün əks etdirən və Maliyyə Hesabatının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olan maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarını hazırlayarkən rəhbərlik aşağıdakılara cavabdehdir:**

- Müvafiq mühasibat uçotu prinsiplərinin seçilməsinə və onların ardıcıl surətdə tətbiqinə;
- Ədalətli və düzgün qərarların verilməsinə və qiymətləndirmələrin aparılmasına;
- Maliyyə hesabatlarında açıqlanmış və izah edilmiş hər hansı mühüm kənarlaşmaların MHBS-in tələblərinə uyğunluğuna; və
- Qrupun təxmin edilə bilən dövr ərzində öz fəaliyyətini davam etdirməsi mümkün olmayana qədər maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanmasına.

**Həmçinin rəhbərlik aşağıdakılara görə məsuliyyət daşıyır:**

- Qrupdə effektiv və sağlam daxili nəzarət sisteminin qurulmasına, tətbiqinə və saxlanılmasına;
- Qrupun maliyyə vəziyyətini hər zaman dəqiq açıqlayan və filialın maliyyə hesabatlarının MHBS-in tələblərinə uyğun olduğuna təminat verən mühasibat yazılışlarının hər zaman dəqiq və düzgün saxlanılmasına;
- Mühasibat yazılışlarının Azərbaycan Respublikasının qanunvericiliyinə və mühasibat uçotu qaydalarına uyğun aparılmasına;

- Qrupun aktivlərinin mühafizə edilməsi üçün mümkün tədbirlərin görülməsinə; və
- Saxtakarlıq hallarının və digər pozuntuların müəyyən edilməsinə və qarşısının alınmasına.

**31 dekabr 2018-ci il tarixinə bitən il üzrə maliyyə hesabatları 25 Iyun 2019-ci il tarixdə təsdiq olunmuşdur.**

| | |
|---|---|
| ______________________ | ______________________ |
| **Rəhbər** | **Baş Mühasib** |
| **25 İyun 2019-cu il** | **25 İyun 2019-cu il** |

Sərbəst auditor
E.E. İbrahimov
İcazə 18 Avqust 2017 ci il

Fuzuli küç 49 SKS Plaza
AZ 1117, Bakı, Azərbaycan
Tel. : +994 (50) 2255050

# MÜSTƏQİL AUDİTORUN RƏYİ

**"Modern Construction Group" Məhdud Məsuliyyətli Cəmiyyətin rəhbərliyinə:**

*Rəy*

Biz, « **Modern Construction Group** » MMC (bundan sonra Cəmiyyət) 31 dekabr 2018-cı il tarixinə olan konsolidə olunmuş maliyyə vəziyyətinin hesabatdan, məcmu gəlirlər hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Fikrimizcə, Qrupun mühasibat uçotu Azərbaycan Respublikasının 29 iyun 2004-cü il tarixli "Mühasibat uçotu haqqında" qanununun müddəalarına tam riayət edilməməsini istisna edilməklə, maliyyə hesabatları 31 dekabr 2018-cı il tarixinə Qrupun maliyyə vəziyyəti, bu tarixdə tamamlanan il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin axını Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına müvafiq olaraq bütün mühüm aspektləri düzgün əks etdirir.

*Rəy üçün əsaslar*

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

*Maliyyə hesabatları üçün rəhbərliyin məsuliyyəti*

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.
Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.
İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

*Auditorların məsuliyyəti*

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Sərbəst Auditor
Elnur İbrahimov

*Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü*
*SA/328*

**Bakı, Azərbaycan Respublikası**
**25 İyun 2019-cu il**

Azərbaycan Respublikası Sərbəst Auditor Elnur Elxan oğlu İbrahimov Auditorlar Palatası

“Modern Construction Group” MMC-nin və onun törəmə müəssisələrinin

# MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA KONSOLİDƏ OLUNMUŞ HESABAT, 31 DEKABR 2018 Cİ TARİXƏ ( Manat ilə )

| Aktivlər | Qeydlər № | 31/12/2018 | 31/12/2017 |
|---|---|---|---|
| ***Uzunmüddətli aktivlər*** | | | |
| Torpaq Tikili və Avadanlıqlar | 4 | 417 598.78 | 382 461.16 |
| Törəmə müəssisələrdə pay sahibliyi | 10 | 1000.00 | |
| Qeyri-maddi aktivlər | 5 | 6 303.42 | 6 303.42 |
| **Məcmu uzunmüddətli aktivlərin dəyəri** | | **424 902.20** | **388 764.58** |
| ***Qısa müddətli aktivlər*** | | | |
| Ehtiyatlar | 6 | 352 303.10 | 707 604.68 |
| Dövlət büdcəsindən alacaqlar | 7 | 296 488.38 | 171 383.28 |
| Debitor borclar və verilmiş avanslar | 8 | 4 111 475.28 | 226 567.27 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 9 | 246 708.94 | 379 134.03 |
| **Məcmu qısamüddətli aktivlərin dəyəri** | | **5 006 975.70** | **1 484 689.26** |
| **Məcmu aktivlərin dəyəri** | | **5 431 877.90** | **1 873 453.84** |
| **Kapital və öhdəliklər** | | | |
| ***Kapital*** | | | |
| Nizamnamə kapitalı | | 40.00 | 40.00 |
| Bölüşdürülməmiş mənfəət | 11 | 249 903.45 | (1 289 255.03) |
| **Məcmu kapitalın dəyəri** | | **249 943.45** | **(1 289 215.03)** |
| ***Uzunmüddətli öhdəliklər*** | | | |
| Uzunmüddətli öhdəliklər | 12 | 1 778 466.48 | 924 296.23 |
| **Məcmu uzunmüddətli öhdəliklərin dəyəri** | | **1 778 466.48** | **924 296.23** |
| ***Qısamüddətli öhdəliklər*** | | | |
| Qısamüddətli alınmış avanslar | 13 | 530 410.25 | 2 165 907.15 |
| Qısamüddətli kreditor borclar | 14 | 2 017 387.98 | 38 016.08 |
| Dövlət büdcəsinə öhdəliklər | 15 | 855 669.74 | 34 449.41 |
| **Məcmu qısamüddətli öhdəliklərin dəyəri** | | **3 403 467.97** | **2 238 372.64** |
| **Məcmu öhdəliklərin dəyəri** | | **5 181 934.45** | **3 162 668.87** |
| **Məcmu kapital və öhdəliklərin dəyəri** | | **5 431 877.90** | **1 873 453.84** |

Azərbaycan Respublikası Bakı şəh. limited liability company “MODERN CONSTRUCTION GROUP” məhdud məsuliyyətli cəmiyyət Azerbaijan Republic Baku city

**"Modern Construction Group" MMC-nin və onun törəmə müəssisələrinin**

# MƏCMU GƏLİRLƏR HAQQINDA KONSOLİDƏ OLUNMUŞ HESABAT 31 DEKABR 2018 Cİ İL TARİXƏ

**( Manat ilə )**

| | Qeydlər № | 31/12/2018 | 31/12/2017 |
|---|---|---|---|
| *Gəlirlər* | | | |
| Satışdan gəlir | 16 | 10 755 038.50 | 1 339 203.23 |
| Satışların maya dəyəri | 17 | 7 986 117.76 | 885 918.12 |
| **Ümumi mənfəət** | | **2 768 920.74** | **453 285.11** |
| **İdarəetmə xərcləri** | | | |
| Nəqliyyat üzrə xərclər | | 83 098.13 | 54 205.08 |
| Təmir xərcləri | | 6 940.34 | |
| Maliyyə xərcləri | | 93 140.88 | 25 359.93 |
| Konsaltinq xərcləri | | 43 330.28 | 2 550.65 |
| Ezamiyyət üzrə xərclər | | 25 974.30 | 86 061.00 |
| **Toplam İdarəetmə xərcləri** | | **252 483.93** | **168 176.66** |
| **İnzibati xərclər** | **18** | **793 055.42** | **712 882.66** |
| **Qeyri-əməliyyat gəliri/xərci** | **19** | **34 499.34** | **(50 940.53)** |
| **Mənfəət vergisindən əvvəlki mənfəət** | | **1 757 880.73** | **(478 714.74)** |
| **Mənfəət vergisi xərci** | | **97 795.16** | **0** |
| **İl üzrə xalis mənfəət** | | **1 660 085.57** | **(478 714.74)** |
| ***Sair məcmu ( zərər) və gəlir*** | | | |
| Sonrakı dövrlərdə mənfəət və ya zərərə yenidən təsnif edilməli olan sair məcmu ( zərər )/gəlir-vergi sanksiyaları və digər vergi uçotuna uyğun olaraq gəlirdən çıxılmayan xərclər. | **20** | **(120 927.09)** | **(66 073.15)** |
| **İl üzrə cəmi məcmu gəlir** | | **1 539 158.48** | **(544 787.89)** |

Azərbaycan Respublikası Bakı şəh. limited liability company "MODERN CONSTRUCTION GROUP" məhdud məsuliyyətli cəmiyyət Azerbaijan Republic Baku city

"Modern Construction Group" MMC-nin və onun törəmə müəssisələrinin

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA KONSOLİDƏ OLUNMUŞ HESABAT 31 DEKABR 2018 Cİ İL TARİXƏ ( Manat ilə )

| | Qeydlər № | Nizamnamə kapitalı | Bolüşdürülməmiş Mənfəət (ödənilməmiş zərər) | Yenidən qiymətlədirilmə | Cəmi |
|---|---|---|---|---|---|
| **1 yanvar 2017-ci tarixinə olan qalıq** | | 40.00 | (754 243.12) | 0.00 | (754 203.12) |
| **2017-ci il üçün kapitaldakı dəyişikliklər** | | | | | |
| Dövr ərzində xalis mənfəət | | | (478 714.74) | 0.00 | (478 714.74) |
| Ödənilmiş dividend | | | 0.00 | 0.00 | 0.00 |
| Vergi yoxlaması zamanı tətbiq edilmiş maliyyə sanksiyası və digər zərər | | | (66 073.15) | | (66 073.15) |
| Yenidən qiymətləndirilmədən əldə olunan gəlir | | | 9 775.98 | 0.00 | 9 775.98 |
| **31 dekabr 2017-ci il tarixinə olan qalıq** | | 40.00 | (1 289 255.03) | 0.00 | (1 289 255.03) |
| **2018-ci il üçün kapitaldakı dəyişikliklər** | | | | | |
| Dövr ərzində xalis mənfəət | | | 1 660 085.57 | 0.00 | 1 660 085.57 |
| Ödənilmiş dividend | | | 0.00 | 0.00 | 0.00 |
| Vergi yoxlaması zamanı tətbiq edilmiş maliyyə sanksiyası və digər zərər | | | (120 927.09) | 0.00 | (120 927.09) |
| Yenidən qiymətləndirilmədən əldə olunan gəlir | | | 0.00 | 0.00 | 0.00 |
| **31 dekabr 2018-ci il tarixinə olan qalıq** | | 40.00 | 249 903.45 | 0.00 | 249 943.45 |

Azərbaycan Respublikası Bakı şəh. limited liability company "MODERN CONSTRUCTION GROUP" məhdud məsuliyyətli cəmiyyət Azerbaijan Republic Baku city

**"Modern Construction Group" MMC-nin və onun törəmə müəssisələrinin**
**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA KONSOLİDƏ OLUNMUŞ HESABAT 31 DEKABR 2018 Cİ İL TARİXƏ ( Manat ilə )**

| | Qeydlər № | 31/12/2018 | 31/12/2017 |
|---|---|---|---|
| ***Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti*** | | | |
| Hesabat dövrü üzrə xalis mənfəət | | **1 660 085.87** | **(478 714.74)** |
| ***Düzəlişlər:*** | | | |
| Aktivlər üzrə hesablanmış amortizasiya | | 90 035.75 | 107 130.25 |
| Vergi Məcəlləsinə əsasən hesabat dövründə hesablanmış mənfəət vergisi | | 97 795.16 | 0.00 |
| Maliyyə xərcləri | | 93 140.88 | 25 359.93 |
| Məzənnə üzrə yaranmış ( zərər )/gəlir | | (30 391.94) | 51 012.83 |
| Torpaq tikili avadanlıqların satışından (gəlir) və zərər | | (1 483.68) | 0.00 |
| **Düzəlişdən sonrakı pul vəsaitinin hərəkəti** | | **1 909 181.74** | **(295 211.73)** |
| Debitor borclarının ( artması ) azalması | | (3 884 908.01) | (140 406.48) |
| Material ehtiyatlarının ( artması ) azalması | | 355 301.58 | (644 528.94) |
| Təxirə salınmış vergi aktivinin ( artması ) azalması | | (125 105.10) | 102 806.02 |
| Uzunmüddətli öhdəliklərin artması ( azalması ) | | 854 170.25 | 323 544.95 |
| Vergi və sair məcburi öhdəliklərin artması ( azalması ) | | 831 729.46 | 21 691.55 |
| Sair aktivlərin ( artması ) azalması | | 0.00 | 0.00 |
| Qısamüddətli öhdəliklərin artması ( azalması ) | | 343 875.00 | 1 130 116.58 |
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitinin xalis hərəkəti** | | **273 735.79** | **498 011.95** |
| Dövr ərzində ödənilmiş mənfəət vergisi | | (97 795.16) | 0.00 |
| Digər ödənişlər | | (120 927.09) | (66 073.15) |
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitinin xalis hərəkəti** | | **55 013.54** | **431 938.80** |
| ***İnvestisiya fəaliyyəti üzrə pul vəsatinin hərəkəti*** | | | |
| Asılı müəssisələrə investisiya | | (1 000.00) | |
| Torpaq, tikili və avandanlıqlar əldə edilmişdir | | (125 384.60) | (1 833.00) |
| Torpaq, tikili və avandanlıqlar xaric olmasından daxilolmalar | | 1 694.91 | 0.00 |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsatinin xalis hərəkəti** | | **(124 689.69)** | **(1 833.00)** |
| ***Maliyyələşmə fəaliyyəti üzrə pul vəsatinin hərəkəti*** | | | |
| Cəlb edilmiş kredit vəsaitləri | | 0.00 | 0.00 |
| Kreditlər üzrə əsas məbləğin qaytarılması | | 0.00 | 0.00 |
| Ödənilmiş Maliyyə xərcləri | | (93 140.88) | (25 359.93) |
| **Maliyyələşmə fəaliyyəti üzrə pul vəsatinin xalis hərəkəti** | | (93 140.88) | (25 359.93) |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə qalığı** | | **379 134.03** | **25 400.99** |
| ***İl ərzində pul vəsaitlərinin artması ( azalması )*** | | **(162 817.03)** | **404 745.87** |
| ***Xarici valyuta məzənnələrində dəyişiklərinin təsiri*** | | 30 391.94 | (51 012.83) |
| **Bank overdraftı çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna qalığı** | | **246 708.94** | **379 134.03** |

## 1. ÜMUMİ MƏLUMAT:

**"Modern Construction Group " Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra – "Qrup") Qrupun 1300144301 saylı dövlət qeydiyyat nömrəsi (VÖEN) və 1801020037249500 saylı Kommersiya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış təqdim olunmuşdur Qrupun əsas fəaliyyəti Kommersiya və Sahibkar Təşkilatların fəaliyyətindən ibarətdir. Qrup Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun Bakı şəhəri üzrə hüquqi şəxslərlə iş departamentində qeydiyyata alınaraq 11110024978 saylı SUN- nömrəsi almışdır.**

**Qrupun qanuni təmsilçisi: Tağıyev Oyrat Elşad oğludur.**

**Qrupun əsas fəaliyyəti: Geniş çeşidli bina və sənaye tipli tikinti-quraşdırma işləri**

**Qrupun hüqquqi ünvanı:: AZ1052 Azərbaycan Respublikası, Bakı şəhəri, Nərimanov rayonu Əhməd Rəcəbli küç ev 25B 5-ci mərtəbə**

"Modern Construction Group " Məhdud Məsuliyyətli Cəmiyyəti-nin aşağıdakı törəmə müəssisə vardır:

**"MCG Technical Solutions" Məhdud Məsuliyyətli Cəmiyyəti**

**VÖEN 1404375561**

**Əsas fəaliyyəti: Tikinti fəaliyyəti**

**Pay sahibliyi: 100%**

**2018-ci il üzrə hər hansı bir fəal maddi-təsərrüfat fəaliyyəti olmamışdır.**

## 2. TƏQDİMATIN ƏSASLARI:

**Mühasibat uçotu prinsipi** – Qrupun maliyyə hesabatları Beynəlxalq Maliyyə Hesabatları Standartları ("BMHS") əsasında hazırlanmışdır. Məbləğlərə dair hər hansı digər qeydlər olmadıqda, maliyyə hesabatlarında məbləğlər Azərbaycan manatı ilə ("manat") təqdim olunur. Bu maliyyə hesabatları tarixi dəyər əsasında hazırlanmışdır.

Qrupun öz mühasibat yazılışlarını Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun aparır ki, bu da əksər hallarda BMHS-in tələblərinə cavab verir. Bu maliyyə hesabatları Azərbaycanın yerli mühasibat qaydaları əsasında hazırlanmış və BMHS-ə uyğunlaşdırılmışdır. Maliyyə hesabatlarının BMHS-na uyğun hazırlanması rəhbərliyin müəyyən hesab növləri üçün təqribi hesablamalardan və fərziyyələrdən istifadə edilməsini tələb edir. Bu təqribi hesablama və fərziyyələrin maliyyə hesabatları tarixinə əks olunan aktiv və öhdəliklərin göstəricilərinə, şərti aktiv və öhdəliklərin açıqlamalarına və hesabat dövründə göstərilən gəlir və xərc məbləğlərinə təsiri vardır. Faktiki nəticələr bu təqribi hesablamalardan fərqlənə bilər. Dəyişikliklərə məruz qala bilən göstəricilərə kreditlər üzrə ehtimal olunan zərərlər üçün ehtiyatlar və maliyyə alətlərinin bərpa və ədalətli dəyərinin hesablanması aiddir.

**TƏQDİMATIN ƏSASLARI ( DƏVAMI )**

**Hesabatların hazırlanmasında əsasən aşağıdakı BMHS-nə istinad edilmişdir:**

**1. MUBS 1- "MUBS-nın birinci dəfə qəbul edilməsi"** - Bu standart Qrupun MUBS –na uyğun hesabat hazırlayarkən hesabat tarixində qüvvədə olan hər bir vahid
standarta tabe olmasını tələb edir. Müəyyən istisna və azad edilmələrə əsasən bu MUBS retrospektiv şəkildə tətbiq edilməlidir. Ona görə müqayisəli hesablar, həmçinin müqayisəli müddət üçün ilkin balans hesabatının hər bir maddəsi milli standartlardan MUBS-na keçirilir.

İlk dəfə MUBS-na uyğun hazırlanmış maliyyə hesabatlarının Hesabat tarixi balans hesabatı tarixidir. İlkin balansı hazırlayarkən:

- **MUBS ilə tanınması tələb olunan bütün aktiv və öhdəlikləri tanımaq.** Hamı tərəfindən qəbul olunan mühasibat uçotu prinsiplərini milli standartlardan fərqləndirən nümunələrinə törəmələr, icarə və lizinq əməliyyatları, təqaüd öhdəlikləri, aktivləri və yenidən dəyərləndirilmiş aktivlər üzrə təxirə salınmış vergilər daxildir. Tələb olunan düzəlişlər şirkətin kapitalının azaldılması və ya artırılması hesabına həyata keçirilir.
- **MUBS tərəfindən tanınmasına icazə verilməyən aktiv və öhdəlikləri ləğv etmək.** Hamı tərəfindən qəbul olunan mühasibat uçotu prinsiplərini milli standartlardan fərqləndirən nümunələrinə təxirə salınmış sığortalanma gəlirləri və itkiləri, digər təxirə salınmış xərclər, bəzi şirkətdə hazırlanmış qeyri-maddi aktivlər və ehtiyatlar daxildir. Tələb olunan düzəlişlər şirkətin kapitalının azaldılması və ya artırılması hesabına həyata keçirilir.
- **MUBS-na əsasən fərqli şəkildə təsnifləşməli olan bəndləri yenidən təsnifləndirmək.** Hamı tərəfindən qəbul olunan mühasibat uçotu prinsiplərini milli standartlardan fərqləndirən nümunələrinə maliyyə aktivləri, maliyyə öhdəlikləri, icarəyə götürülmüş əmlak və torpaq mülkiyyəti, mürəkkəb maliyyə sənədləri və alınmış qeyri-maddi aktivlər (işgüzar etibarlılığa aid edilənlər). Tələb olunan düzəlişlər balans maddələrinin yenidən qruplaşdırılması hesabına həyata keçirilir.
- **Keçid tarixində milli, hamı tərəfindən qəbul olunan mühasibat uçotu prinsiplərinə uyğun qiymətləndirmə şərtlərinə uyğun olan qiymətləndirmədən istifadə etməklə aktivlərin və öhdəliklərin hesablanmasında MUBS-nı tətbiq etmək.** Hamı tərəfindən qəbul olunan mühasibat uçotu prinsiplərini milli standartlardan fərqləndirən nümunələrinə təxirə salınmış vergilər, təqaüdlər, amortizasiya və yaxud aktivlərin qiymətdən düşməsi daxildir. Tələb olunan düzəlişlər şirkətin kapitalının azaldılması və ya artırılması hesabına həyata keçirilir.

**2. MUBS 1 – "Maliyyə hesabatlarının təqdimatı"** - Bu standartın məqsədi universal maliyyə hesabatlarını və onların MUBS -na uyğunluğunun təmin edilməsinə lazım olan əsasları təmin etməkdir. Əsas məsələ Qrupun əvvəlki dövr üçün maliyyə hesabatlarının digər Qrupların maliyyə hesabatları ilə müqayisə edilən olmasıdır. Bu həmçinin məlumatlı istifadəçilərə müəyyən edilən formal struktura etibar etməyə və maliyyə analizinə yardım etməyə imkan verir.

**TƏQDİMATIN ƏSASLARI ( DƏVAMI )**

Bu standartın məqsədi həm Qrupun əvvəlki dövrlər üzrə maliyyə hesabatları, həm də digər Qruplərin maliyyyə hesabatları ilə müqayisəni təmin etməkdə universal maliyyə hesabatlarının təqdim olunmasının əsasını təmin etməkdir. Bura aşağıdakılar daxildir:

- **maliyyə hesabatlarının təqdim olunması üçün ümumi tələblər;**
- **onların quruluşu üçün təlimatlar;**
- **onların məzmunu üçün minimum tələblər MUBS 1 müəyyən edir;**
- **maliyyə hesabatlarının tam komplektini nə təşkil edir (yəni, balans hesabatı, gəlir hesabatı, kapitalın dəyişməsi haqqında hesabat, uçot siyasəti və qeydlər);**
- **strukturları haqqında təlimatlar daxil olmaqla maliyyə hesabatlarının təqdim olunması üçün ümumi tələblər;**
- **dövri və dövri olmayan elementlər arasında fərq;**
- **maliyyə hesabatlarının məzmunu üçün minimum tələblər;**

MUBS 1 ilkin sənəd kimi 2006-cı ilin mart ayında dərc edilmişdir və 2006-cı ilin iyul ayında ilk qeydlər müzakirə edilməkdə idi. İcra haqqında hesabat və gəlirlərin ətraflı hesabatı əsas maliyyə hesabatlarına daxil edilmək üçün təqdim edilir.

**3. MUBS 2 – "Ehtiyatlar"** - standartı ehtiyatın dəyərinin hesablanmasının, ehtiyat üçün tətbiq edilən metodun, aktivlərin dəyərinin və xərclərin yerləşdirilməsinin və təmiz reallaşa bilən gəlir əldə etmək üçün hər hansı borcların silinməsinin müəyyən edilməsi ilə məşğul olur.

**Bu standart aşağıda verilən aktivlərin bütün ehtiyatları ilə məşğul olur:**

- **adi biznes fəaliyyəti ərzində satış üçün saxlanılan;**
- **satış üçün istehsal prosesində;**
- **istehsal prosesində sərf ediləcək materiallar və ya ehtiyatlar formasında;**
- **xidmətlərin göstərilməsində;**

Xidmət tədarükçüsü halında ehtiyatlara əlaqəli gəlirin hələ tanınmadığı xidmət xərcləri daxildir. (məsələn auditorların, memarların və hüquqşünasların başa çatmamış işləri) Podrat müqavilələrini (MUBS 11) və maliyyə alətlərini (MUBS 39) MUBS 2-nin istisna etməsinə baxmayaraq bu standartdakı prinsiplər istisna edilmiş standartların müəyyən imkanlarını tətbiq edən zaman istifadə edilir.

Ehtiyatlar xərclərdən az və reallaşa bilən xalis dəyər seçimi əsasında qiymətləndirilməlidir. Ehtiyatların qiymətinə satın almanın bütün xərcləri, çevrilmə xərcləri və ehtiyatları cari yerinə və vəziyyətinə gətirmək üçün çəkilmiş digər xərclər daxildir.

Xalis satılabilən dəyər satışı həyata keçirmək üçün zəruri olan xərclər və başa çatdırılmanın hesablanmış xərclərindən az olan hesablanmış satış qiymətləridir. Ehtiyatlar satılarkən xərclərin balans dəyəri aidiyyatlı gəlirin tanındığı müddət ərzində məsrəf kimi tanınır.

## TƏQDİMATIN ƏSASLARI ( DƏVAMI )

Reallaşa bilən xalis dəyəri əldə etmək üçün ehtiyatların silinmiş hər hansı borcunun məbləği və ehtiyatların bütün zərərləri borcların silindiyi və ya zərər müddətində xərc kimi tanınmalıdır.

Adi qaydada qarşılıqlı əvəz edilə bilməyən və xüsusi layihələr üçün istehsal edilmiş və ayrılmış ehtiyatların dəyəri onların fərdi xərclərinin spesifik eyniləşdirmə metodu ilə təyin edilir.

**Digər ehtiyatların dəyəri aşağıdakı xərc formullarından biri ilə təyin edilir:**

- **orta dəyərin hesablanması metodu**
- **FIFO**

**Əgər nəticələr dəyərə yaxın olarsa ehtiyatların dəyərini hesablamaq üçün aşağıdakı üsullardan istifadə olunur:**

**Normativ dəyər:**

- **Material, əmək və faktiki tutumun normal səviyyələri hesaba alınmalıdır.**
- **Standart dəyərin faktiki dəyərə yaxın olmasından əmin olmaq üçün standart dəyər müntəzəm olaraq yoxlanılmalıdır.**

**Pərakəndə üsul**

- **Dəyəri hesablamaq üçün ümumi gəlir qədər satışdan gəlir azaldılmalıdır.**
- **Maddələrin hər bir eynicinsli qrupu üçün orta faizdən istifadə olunmalıdır.**
- **Aşağı salınmış qiymətlər nəzərə alınmalıdır.**

**4. MUBS 7 – "Pul vəsaitlərinin axını barədə hesabat"** - Pul vəsaitlərinin axını barədə hesabat istifadəçiləri əsasən Qrupun ödəmə qabiliyyəti və likvidliyi haqqında əlavə məlumat verən ayrıca maliyyə hesabatıdır. Pul vəsaitlərinin axını barədə hesabatın digər əsas mahiyyəti istifadəçilərə aşağıdakıları müəyyən etməyə imkan verməsidir:

- **müəyyən dövr üçün pul qalıqlarının hərəkəti**
- **pul vəsaitləri axınının vaxtı və dəqiqliyi**
- **Qrupun pul və pul ekvivalentlərini yaratmaq qabiliyyəti**
- **gələcək pul vəsaitləri axınının proqnozu (qiymətləndirmə modelləri üçün istifadə edilə bilən).**

Bu standarta maliyyə vəsaitlərinin hərəkəti barədə hesabat məsələsi daxildir. Bütün Qruplərdən hesabat müddəti ərzində pul vasitələrinin axını barədə məlumat verən hesabatı təqdim etmək tələb olunur. Birbaşa və dolayısı metoddan istifadə edilə bilər. Pul və pul ekvivalentləri müəyyən edilməlidir. Pul vəsaitləri axını aşağıdakı kimi təsniflənməlidir:

- **Əməliyyat fəaliyyətləri**
- **İnvestisiya fəaliyyətləri**
- **Maliyyə fəaliyyətləri**

**TƏQDİMATIN ƏSASLARI ( DAVAMI )**

**5. MUBS 12 – "Mənfəət vergisi". Bu Standartın məqsədi mənfəət vergisi üzrə mühasibat uçotunun aparılmasıdır. Mənfəət vergisi üzrə uçotun başlıca məsələsi aşağdakılar üzrə cari və gələcək vergi nəticələrinin hansı şəkildə uçota alınmasıdır:**

(a) Qrupun maliyyə vəziyyəti haqqında hesabatda tanınan aktivlərin (öhdəliklərin) balans dəyərinin gələcəkdə əvəzinin alınması (ödənilməsi); və

(b) Qrupun maliyyə hesabatlarında tanınan əməliyyatlar və cari dövrün digər hadisələri. Aktiv və ya öhdəliyin tanınması hesabat verən Qrup tərəfindən həmin aktivin və ya öhdəliyin balans dəyərinin əvəzinin alınmasını və ya ödənilməsini nəzərdə tutur.

Bu balans dəyərinin əvəzinin alınmasının və ya ödənilməsinin, bunun heç bir vergi nəticəsi gətirmədiyi təqdirdə olacaq vergi ödənişlərindən daha böyük (kiçik) gələcək vergi ödənişləri ilə nəticələnəcəyi ehtimal olunursa, bu Standart, məhdud sayda müəyyən istisnalarla, Qrupun təxirə salınmış vergi öhdəliyini (təxirə salınmış vergi aktivini) tanımasını tələb edir.

Bu Standart əməliyyatların və digər hadisələrin vergi nəticələrinin əməliyyatların və digər hadisələrin özlərinin uçota alındığı şəkildə uçota alınmasını tələb edir. Beləliklə, mənfəət və zərər haqqında hesabatda tanınan əməliyyatlar və digər hadisələr ilə əlaqədar hər hansı vergi nəticələri həmçinin mənfəət və zərər haqqında hesabatda tanınır. Mənfəət və ya zərərdən kənarda (məcmu gəlir və ya birbaşa kapitalda) tanınan əməliyyatlar və digər hadisələr ilə əlaqədar hər hansı vergi nəticələri həmçinin mənfəət və ya zərərdən kənarda (uyğun olaraq məcmu gəlir və ya birbaşa kapitalda) tanınır. Eyni şəkildə, Qrupların birləşməsi zamanı təxirə salınmış vergi aktivləri və öhdəliklərinin tanınması həmin Qrupların birləşməsində yaranan qudvilin məbləği və ya güzəştli alışdan qazanc tanınır.

Bu Standart həmçinin, istifadə olunmamış vergi zərərləri və ya vergi kreditlərindən

yaranan təxirə salınmış vergi aktivlərinin tanınması, mənfəət vergisinin maliyyə hesabatlarında təqdim olunması və mənfəət vergisi ilə bağlı məlumatların açıqlanmasına tətbiq olunur.

Hazırkı və əvvəlki dövrlər üzrə cari vergi, ödənilməyən məbləğə bərabər öhdəlik kimi tanınmalıdır. Hazırkı və əvvəlki dövrlər üzrə ödənilmiş məbləğ həmin dövrlər üzrə ödənilməli məbləğdən artıq olarsa, artıq olan hissə aktiv kimi tanınır. Əvvəlki dövrün cari vergisinin əvəzinin alınması üçün keçmiş dövrə keçirilə bilən vergi zərəri ilə əlaqədar səmərə aktiv kimi tanınır.Vergi zərəri əvvəlki dövrün cari vergisinin əvəzinin alınması üçün istifadə olunduqda, səmərənin Qrupyə daxil olacağı ehtimal olunduğu üçün və o etibarlı qiymətləndirilə bildiyi üçün, Qrup vergi zərərinin yarandığı dövrdə səmərəni aktiv kimi tanıyır.

Bu Standartın məqsədləri baxımından, mənfəət vergisinə vergi mənfəətinə əsaslanan bütün yerli və xarici vergilər daxildir. Mənfəət vergisinə həmçinin, törəmə Qruplər asılı Qruplər və ya birgə Qruplər tərəfindən hesabat verən Qrupyə bölüşdürülən mənfəət üzrə ödənilən ödəmə mənbəyində tutulan vergi kimi vergilər daxildir.

Bu Standart hökumətin subsidiyalarının (bax. MUBS 20 "Hökumətin subsidiyalarının uçotu və dövlət yardımı haqqında məlumatın açıqlanması") və ya investisiya üzrə vergi kreditlərinin uçotu metodlarına aid deyil. Lakin, bu Standart belə subsidiyalar və ya investisiya vergi kreditlərindən yarana bilən müvəqqəti fərqlərin uçotuna tətbiq olunur.

Hazırkı və əvvəlki dövrlər üzrə cari vergi, ödənilməyən məbləğə bərabər öhdəlik kimi tanınmalıdır. Hazırkı və əvvəlki dövrlər üzrə ödənilmiş məbləğ həmin dövrlər üzrə ödənilməli məbləğdən artıq olarsa, artıq olan hissə aktiv kimi tanınır.

Əvvəlki dövrün cari vergisinin əvəzinin alınması üçün keçmiş dövrə keçirilə bilən vergi zərəri ilə əlaqədar səmərə aktiv kimi tanınmalıdır.

Vergi zərəri əvvəlki dövrün cari vergisinin əvəzinin alınması üçün istifadə olunduqda, səmərənin Qrupyə daxil olacağı ehtimal olunduğu üçün və o etibarlı qiymətləndirilə bildiyi üçün, Qrup vergi zərərinin yarandığı dövrdə səmərəni aktiv kimi tanıyır.

**6. MUBS 17 -"İcarə"** - Hazırkı Standartın məqsədi həm icarəçi, həm də icarəyə verən subyekt üçün icarə ilə əlaqədar tətbiq olunacaq müvafiq uçot siyasətinin və məlumatın açıqlanması qaydalarının müəyyən edilməsindən ibarətdir. Hazırkı Standart 01 yanvar 2005-ci il və ya ondan sonrakı tarixdən başlayan illik dövr üçün tətbiq edilir və "İcarələr haqqında" adlı 17 №-li MUBS-u (1997-ci ildə düzəliş edilmiş) əvəz edir.

İcarəçinin, müqaviləyə uyğun olaraq, aktivi icarəyə götürdüyü ləğv edilməyən müddəti icarə müddətidir. İcarəçi əlavə ödənişlə və ya ödənişsiz həmin müddəti daha uzun müddətə uzatmaq hüququna malikdir. Lakin, uzadılması mümkün olan müddətin icarə

müddətinə daxil edilməsi üçün, icarə şərtlərinin qəbul edilməsi tarixində icarəçinin bu hüquqdan istifadə edəcəyinə dair əsaslı əminlik mövcud olur.

Əməliyyatın həyata keçirilməsində maraqlı olan, yaxşı məlumatlandırılmış və bir müstəqil tərəflər arasında aktivin mübadilə edilə biləcəyi məbləğ ədalətli dəyərdir.

İcarə müqaviləsinin qüvvəyə minməsi və tərəflərin icarə predmetinin əsas şərtlərinə dair
öhdəlikləri qəbul etməsi tarixlərindən ən tez başlayan tarix İcarə müddətinin
başlanğıcıdır. Məhz bu tarixdə:

(a) icarə ya əməliyyat, ya da maliyyə icarəsi kimi təsnif edilir; və

(b) maliyyə icarəsi halında, icarə müddətinin başlanğıcında tanınması zəruri olan məbləğlər müəyyənləşdirilir.

**TƏQDİMATIN ƏSASLARI ( DƏVAMI )**

7 №-li MHBS-nın tələblərini yerinə yetirməklə yanaşı, icarəçi maliyyə icarəsi üçün aşağıdakı açıqlamaları təqdim etməlidir:

(a) aşağıdakı dövrlərdən hər biri üçün ləğv edilməyən əməliyyat icarəsi üzrə gələcək minimal icarə ödənişlərinin cəmi:

**(i) bir ildən artıq olmayan dövr;**

**(ii) bir ildən çox, lakin beş ildən artıq olmayan dövr;**

**(iii) beş ildən artıq olan dövr.**

(b) hesabat dövrünün sonunda ləğv edilməyən sub-icarə üzrə alınması gözlənilən gələcək minimal sub-icarə ödənişlərinin cəmi;

(c) minimal icarə ödənişləri, şərti icarə haqqı və sub-icarə ödənişləri üçün ayrı-ayrı məbləğləri göstərərək, xərc kimi tanınan icarə və sub-icarə ödənişləri;

(ç) icarəçi tərəfindən bağlanan əhəmiyyətli icarə müqavilələrinin ümumi təsviri. Aşağıda buna aid bəzi misallar təqdim edilib:

**(i) şərti icarə ödənişlərinin müəyyən edilməsinin əsası;**

**(ii)yeniləndirmə və ya satın alma opsionunun mövcudluğu və şərtləri və dəyişən qiymətlər haqqında qeyd; və**

**(iii) icarə müqavilələri ilə dividendlərə, əlavə borca, sonrakı icarəyə qoyulan məhdudiyyətlər.**

**Qrup fəaliyyət göstərmək üçün yalnız ofis götürür.**

**7. MUBS 19 – “İşçilərin mükafatlandırılması”** - Bu standarta aid olan əsas məsələ gəlirin formasından və zamanından asılı olmayaraq Qrupun işçilərə ödəməyə borclu olduqları bütün gəlirlərin müəyyən edilməsi və tanınmasıdır. Bu Standart mühasibat uçotunun təsdiq edilməsini və ölçü prinsiplərini, həmçinin qısamüddətli və əmək fəaliyyətini bitirdikdən sonra işçilərə müavinətlərin ödənilməsi tələblərinin açıqlanmasını təsvir edir.

Bu standart bütün işçilərə, müavinətlərə, həmçinin rəsmi təkliflər və qeyri-rəsmi təcrübələr əsasında təmin olunan ödənişlər üçün mühasibat uçotunu və ölçü prinsiplərini müəyyən edir.

Beş növ işçi müavinətləri müəyyən edilmişdir, yəni:

**1. Qısamüddətli işçi müavinətləri (məsələn, mükafatlar, əmək haqqları, sosial təminatlar)**

**2. Əmək fəaliyyətini bitirdikdən sonrakı müavinətlər (məsələn, təqaüdlər və digər işdən çıxma ilə bağlı müavinətlər)**

**3. Digər uzunmüddətli işçi müavinətləri (məsələn, uzunmüddətli təqaüd və əgər 12 ay ərzində ödənilməzsə, mənfəətin bölüşdürülməsi, mükafatlar və vaxtı uzadılmış kompensasiya)**

**4. İşdən çıxarma müavinətləri**

**TƏQDİMATIN ƏSASLARI ( DƏVAMI )**

**5. Səhm kapitalının kompensasiyası üzrə müavinətlər (məsələn, MUBS 2 üzrə işçinin səhm opsionu).**

**8. MUBS 24 – "Əlaqəli tərəflərlə bağlı məlumatların açıqlanması"** - Qruplər və fərdi şəxslər arasındakı əlaqəli münasibətlər elə münasibətlərdir ki, burada razılaşma adi asılı olmayan işgüzar razılaşma deyil. Əlaqəli tərəflər arasındakı münasibətlər təhtəlhesab Qrupun maliyyə vəziyyətinə və əməliyyat fəaliyyətinin nəticələrinə təsir göstərə bilər. Bu MUBS -un məqsədi əlaqəli tərəflərin münasibətlərini və onlar arasındakı əməliyyatları müəyyən etmək və məlumatların açıqlanmasının keyfiyyətini artırmaqdan ibarətdir. Qrupun maliyyə hesabatlarında Qrupun maliyyə vəziyyətinə və onun mənfəət və zərər hesabatına əlaqəli tərəflərin olmasının, onlar arasındakı əməliyyatların və əlaqəli tərəflər arasında borc qalığının təsirinin mümkünlüyü açıqlanmalıdır.Bu MUBS əlaqəli tərəflərin münasibətlərini və onlar arasındakı əməliyyatları, məsələn borc qalıqları və ya bu qalıqlar hesabatda göstərildiyi hallarda, müəyyən etmək lazım olduqda tətbiq olunmalıdır.

**MUBS 11 – "Podrat müqavilələri"** - standartındakı müqavilələrə elə podrat müqavilələri daxildir ki, onların müqavilə tarixi ilə başa çatma tarixləri müxtəlif hesabat dövrlərinə aid olur. Onlara aşağıdakılara aid olan müqavilələr daxildir:

- Xidmətlərin göstərilməsi
- Aktivlərin tikintisi, bərpası və ətraf mühitin bərpası.

Bu Standart podrat müqavilələrinin, gəlir və xərclərinin tikinti işlərinin icra edildiyi hesabat dövrünə uyğun olaraq bölüşdürülməsini diqqət mərkəzində saxlayaraq podrat müqavilələrinin, gəlir və xərclərinin tanınması ilə məşğul olur. Bu standart podratçıların maliyyə hesabatlarında podrat müqavilələrinin izah edilməsi üçün tədbiq edilir. Müqavilələrin iki növü fərqləndirilir, yəni:

- Sabit qiymətli müqavilələr - adətən xərclərin artırılması barədə təshihlərə əsasən sabit qiymətli müqavilələr
- Xərc əlavəli müqavilələr - müqavilə xərclərinə belə xərclərin faizi və ya sabit haqq əlavə edilir

MUBS 11 xüsusi olaraq açıqlayır:

- Etibarlı dərəcədə ölçülmək imkanı olmayan podrat müqavilələri üçün uçotu.
- Müqavilə dəyəri etibarlı dərəcədə ölçülə bilən, müqavilə gəlirinin, xərclərinin və assosiativ açıqlamaların olduğu halda yerinə yetirmə faizi metodundan istifadənin mümkünlüyünü.

Podrat müqaviləsi aktivlərin layihələndirilməsi, texnologiyası, və ya onların son istifadəsi və məqsədi daxilində qarşılıqlı şəkildə asılı və ya əlaqəli olan aktivlərin kombinasiyası və ya tikintisi üçün spesifik şəkildə razılaşdırılmış müqavilədir. Podrat müqavilələrinə Qrupun autsorsinq (mühasibatlıq) xidmətinin göstərilməsi barədə bağladığı müqavilə daxildir.

**TƏQDİMATIN ƏSASLARI ( DƏVAMI )**

**9. MUBS 21 "Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri"** məqsədi:

Qrup xarici valyuta ilə bağlı olan fəaliyyətlərini iki üsulla həyata keçirə bilər. Qrup ya xarici valyutada əməliyyatlar həyata keçirə bilər, ya da xaricdə fəaliyyət göstərə bilər.

Bundan başqa Qrup maliyyə hesabatlarını xarici valyutada təqdim edə bilər. Bu Standartın əsas məqsədi Qrupun xarici valyuta ilə həyata keçirdiyi əməliyyatların, habelə, xarici ölkələrdə aparılan fəaliyyətlərin Qrupun maliyyə hesabatlarında əks etdirilməsi və maliyyə hesabatlarının təqdimat valyutasına çevrilməsi qaydalarının müəyyən edilməsidir.

Burada əsas məsələ hansı məzənnənin seçiləcəyi və maliyyə hesabatlarında məzənnə dəyişikliklərinin təsirinin göstərilməsidir.

Bu standart aşağıdakı hallarda tətbiq olunmalıdır:

**(a) "Maliyyə alətləri" adlı 9 №-li MHBS-nın əhatə dairəsində olan törəmə əməliyyatlar və balanslar istisna olmaqla, xarici valyutada olan əməliyyatların və balansların uçotu zamanı;**

**(b) Qrupun konsolidasiya, proporsional konsolidasiya və ya iştirak payı metodu ilə maliyyə hesabatlarına daxil edilmiş xarici əməliyyatlarının nəticələrinin və maliyyə vəziyyətinin çevrilməsi zamanı; və**

**(c) Qrupun fəaliyyətinin nəticələri və maliyyə vəziyyətinin təqdimat valyutasına çevrildiyi zaman.**

9 №-li MHBS bir çox xarici valyuta törəmə alətlərinə tətbiq edilir və uyğun olaraq bunlar bu Standartın tətbiqi sahəsindən çıxarılmışdır. Lakin, 9 №-li MHBS-nın əhatə dairəsində olmayan xarici valyuta törəmə alətləri (məsələn, digər müqavilələrə daxil edilən bəzi xarici valyuta törəmə alətləri) bu Standartın tətbiqi sahəsindədir.

Bu Standart həmçinin, Qrup törəmə alətlər ilə bağlı olan məbləğləri əməliyyat valyutasından təqdimat valyutasına çevirdiyi zaman tətbiq edilir.

Bu Standart, xarici əməliyyata xalis investisiya qoyuluşunun hedcinqi daxil olmaqla, xarici valyuta maddələrinin hedcinq üzrə uçotuna tətbiq edilmir. Hedcing üzrə uçota 39 №-li MUBS tətbiq edilir.

Bu standart Qrupun xarici valyuta ilə təqdim edilmiş maliyyə hesabatlarına tətbiq edilir və bu maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına

(MHBS-na) uyğun olan hesabatlar kimi təsvir edilməsi haqqında tələblər müəyyən edir. Maliyyə informasiyasının xarici valyutaya çevrilməsi bu tələblərə uyğun gəlmədiyi halda, Standart həmin informasiyanın açıqlanmasını müəyyənləşdirir.

**TƏQDİMATIN ƏSASLARI ( DƏVAMI )**

Bu Standart xarici valyuta ilə aparılan əməliyyatlardan yaranan pul vəsaitlərinin hərəkətinin "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat"da təqdimatına və ya xarici əməliyyatlardan yaranan pul vəsaitləri hərəkətlərinin çevrilməsi zamanı tətbiq edilmir (bax "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat" adlı 7 №-li MUBS).

Xarici əməliyyatlarda istifadə edilən valyutanın və bu valyutanın hesabat verən Qrupun valyutası ilə eyni olduğunun müəyyən edilməsində aşağıdakı əlavə faktorlar nəzərə alınmalıdır (hesabat verən Qrup bu kontekstdə, özünün törəmə Qrupsi tabeliyində olan Qrupsi, birgə Qrup və Qrup kimi xarici əməliyyatlar həyata keçirən Qrup olmaqla):

(a) **xarici əməliyyatın hesabat verən Qrupun fəaliyyətinin genişləndirilməsi kimi və ya əhəmiyyətli dərəcədə müstəqil (və ya avtonom) olaraq həyata keçirilməsi.** Birinciyə misal olaraq, xarici Qrupun hesabat verən Qrupun istehsal etdiyi mallarının satışı ilə məşğul olduğunu və əldə olunan gəliri hesabat verən Qrupun hesabına keçirdiyini göstərmək olar. İkinciyə misal olaraq xarici Qrupun pul vəsaitləri və digər monetar maddələrin yığılması, xərclərin çəkilməsi, gəlirin əldə edilməsi və borcların təşkil olunması (wrong) kimi fəaliyyətləri əsasən yerli valyutada həyata keçirməsini göstərmək olar;

(b) **hesabat verən Qrup ilə həyata keçirilən əməliyyatların xarici əməliyyatların az və ya çox hissəsini təşkil etməsi;**

(c) **xarici əməliyyatlardan yaranan pul vəsaitlərinin hərəkətinin hesabat verən Qrupun pul vəsaitlərinin hərəkətinə birbaşa təsir etməsi və bu vəsaitlərin ona köçürülməsi üçün hazır olması;**

(ç) **xarici əməliyyatlardan yaranan pul vəsaitlərinin hərəkətinin mövcud olan və gözlənilən borc öhdəliklərinin ödənilməsi üçün hesabat verən Qrupun fondlarından istifadə etməməklə kifayət etməsi.**

Əgər yuxarıdakı faktorlar qarışıqdırsa və əməliyyat valyutası aydın deyilsə, rəhbərlik əsas əməliyyatların, hadisələrin və şərtlərin iqtisadi təsirini daha düzgün şəkildə əks etdirən valyutanın seçilməsi haqqında qərar verə bilər. Bu yanaşmanın bir hissəsi olaraq rəhbərlik, Qrupun əməliyyat valyutasını təyin etmək üçün əlavə yardım təmin etmək üçün tərtib edilmiş 10 və 11-ci maddələrdə göstərilən faktorlardan əvvəl 9-cu maddədə müəyyən edilmiş ilkin faktorlara üstünlük verməlidir.

Qrupun əməliyyat valyutası ona uyğun olan əməliyyatları, hadisələri və şəraitləri əks etdirir. Buna uyğun olaraq, əməliyyat valyutası müəyyən edildikdən sonra həmin müvafiq əməliyyatlarda, hadisələrdə və şəraitlərdə dəyişikliklər olmadığı zamana qədər dəyişilə bilməz.

**TƏQDİMATIN ƏSASLARI ( DƏVAMI )**

Əgər istifadə edilən əməliyyat valyutası hiperinflyasiyalı iqtisadiyyatın valyutasıdırsa, o zaman, Qrupun maliyyə hesabatları "Hiperinflyasiya iqtisadiyyatında maliyyə hesabatları" adlı 29 №-li MUBS-a uyğun olaraq yenidən təqdim edilməlidir. Qrup, maliyyə hesabatlarını yenidən MUBS 29 əsasən təqdimatdan yayına bilməz, məsələn, bu standarta uyğun olaraq müəyyən edilmiş əməliyyat valyutasından fərqli olan valyutanı özünün əməliyyat valyutası kimi qəbul etməklə yayınmaq kimi üsulla (əsas Qrupun əməliyyat valyutası kimi).

Əməliyyat valyutası-Təqdim olunan maliyyə hesabatlarında əməliyyat valyutası Azərbayacan Respublikası manatıdır (bundan sonra "manat").

**a) Standardlar, şərhlər və 2014-cü ildə qüvvədə olan mövcud standardlara düzəlişlər**

1 yanvar 2014-cü il tarixində və bu tarixdən sonra başlayan uçot dövrlərinə tətbiq edilən və Şirkət tərəfindən qəbul edilmiş aşağıdakı müvafiq yenidən baxılmalar və mövcud standardlara düzəlişlər Mühasibat Uçotunun Beynəlxalq Standardları Komitəsi ("BMUSK") tərəfindən buraxılmışdır

## 3. MÜHÜM MÜHASİBAT SİYASƏTLƏRİ

**Aktivlərin və öhdəliklərin tanınması və ölçülməsi** – Qrupun aktivləri və öhdəlikləri müqavilə şərtlərinin qarşı tərəfi kimi çıxış etdikdə onları öz hesabatında əks etdirir. Aktivlər və öhdəliklər adi qaydada hesablaşma tarixindəki uçot əsasında tanınır.

Aktivlər və öhdəliklər ilk olaraq müqavilə dəyəri ilə hesablanır və müəyyən hallarda tələb olunduqda ədalətli dəyər ilə qiymətləndirilir.

Bu əməliyyatlar üzrə yenidən qiymətləndirmə mexanizmi üçün mühasibat qaydaları aşağıdakı müvafiq mühasibat qaydalarında öz əksini tapmışdır.

**Nağd pul və ona bərabər tutulan vəsaitlər** – Nağd pul və ona bərabər tutulan vəsaitlərə nağd pul və bank hesabındakı vəsaitlər daxil edilmişdir.

**Vergi sistemi** – mənfəət vergisi və digər vergilər Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq hesablanır. Cari vergi xərcləri qüvvədə olan və ya əsasən balans hesabatı tarixinə qüvvədə olan vergi dərəcələrini istifadə etməklə hesablanır.

**Ehtiyatlar** – Ehtiyatlar o zaman nəzərə alınır ki, Qrup keçmiş hadisələr nəticəsində cari hüquqi və ya konstruktiv öhdəliyə malik olur və ehtimal edilir ki, öhdəliyi təmin etmək üçün iqtisadi mənfəətli resurslara ehtiyac olsun və öhdəliyin dəyəri müəyyən olunsun.

## MÜHÜM MÜHASİBAT SİYASƏTLƏRİ ( DƏVAMI )

**Təqaüd və digər sosial fond öhdəlikləri** – Qrup öz işçilərinə təqaüdlərin verilməsi ilə bağlı hər hansı xərclər çəkmir. Azərbaycan Respublikasının qanunvericilik tələblərinə uyğun olaraq, Qrup işçilərin əmək haqlarından təqaüd yardımlarını tutur və onları Dövlət Sosial Müdafiə Fonduna köçürür. Qrup tərəfindən cari yardımlar müvafiq əmək haqlarının qazanıldığı dövr üzrə hesablanmış xərclərlə birlikdə hazırki ümumi əmək haqqının faizi şəklində hesablanır.

İşçilər təqaüdə çıxdıqda, bütün təqaüd ödənişləri yuxarıda qeyd olunan pensiya Fondu tərəfindən həyata keçirilir.

**Gözlənilməyən hadisələr** - Resursların axını zamanı öhdəliyin təmin olunması tələb olunduğundan və dəqiq hesablama aparılacağı yəqin edildiyindən bu kimi

öhdəliklər maliyyə hesabatlarında qeyd olunmamışdır. Gözlənilməyən aktivlər maliyyə hesabatlarında qeyd olunmamışdır, amma iqtisadi mənfəət əldə edildiyi halda açıqlanması mümkündür.

**Gəlir və xərclərin tanınması** – gəlirlər və xərclər hesablama metodu ilə hesablanır.

**Xarici valyuta əməliyyatı** – xarici valyutada müəyyən edilmiş pul aktiv və öhdəlikləri balans tarixindəki alqı-satqı məzənnəsinə uyğun şəkildə Azərbaycan manatına konvertasiya edilir. Xarici valyuta ilə aparılan əməliyyatlar əqdin yerinə yetirildiyi günə olan valyuta məzənnəsi ilə hesablanır.

**Qiymətləndirmələr**

Müəssissə uçot siyasətlərinin tətbiq prosesində rəhbərlik maliyyə hesabatlarında tanınmış məbləğlərə çox əhəmiyyətli təsiri olan aşağıdakı qiymətləndirmələri həyata keçirmişdir:

**Əməliyyat gəliri**

Rəhbərlik belə hesab edir ki, gəlirin tanınması üçün əsas amil BMUS 18-də göstərilmişdir: Gəlir əməliyyatla bağlı iqtisadi səmərənin daxil olması ehtimal olunduqda tanınır. Müştəri tərəfindən öhdəliyin qəbul edərsə, iqtisadi səmərə artıq ötürülmüşdür və belə şəraitdə gəlirin tanınması mümkündür.

**Ehtimal və fərziyyələr**

Növbəti maliyyə ili çərçivəsində, balans hesabatı tarixinə aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli dəyişikliyə gətirib çıxar biləcək, gələcəyi əhatə edən və ehtimallardakı qeyri-müəyyənliyin əhəmiyyətli mənbəyini təşkil edən əsas fərziyyələr aşağıdakılardır:

**Torpaq, tikili və avadanlıqlar**

Torpaq, tikili və avadanlıqlar faydalı istifadə müddəti üzrə amortizasiya olunur. Faydalı istifadə müddəti isə torpaq, tikili və avadanlıqların gözlənilən istifadə sxeminə, istismar amillərindən asılı olan fiziki köhnəlməsinə əsasən formalaşır. Menecment əhəmiyyətsiz hesab etdiyindən torpaq, tikili və avadanlıqlar üçün son qalıq dəyəri nəzərdə tutmamışdır.

## MÜHÜM MÜHASİBAT SİYASƏTLƏRİ ( DƏVAMI )

### Torpaq, tikili və avadanlıqlar

Torpaq, tikili və avadanlıqlar ilkin dəyərlə, yığılmış amortizasiya və müəyyən olunmuş qiymətdəndüşmə üzrə zərərlər çıxılmaqla uçota alınır. İlkin dəyərə alış qıyməti, rüsumlar, tariflər və onların müəssisə rəhbərliyinin istədiyi vəziyyətə və lazımi istismar yerinə gətirilməsi ilə bağlı birbaşa xərclər daxildir. Torpaq, tikili və avadanlıqlar faydalı istifadə müddətləri üzrə azalan qalıq dəyəri metodu ilə amortizasiya olunur:

| | |
|---|---|
| Binalar | 7% |
| Maşın və avadanlıqlar | 25% |
| Nəqliyyat vasitələri | 25% |
| Digər əsas vəsaitlər | 20% |
| Qeyri Maddi Aktivlər | 0% |

### Qeyri-maddi aktivlər

**İlkin dəyər modeli**

Qeyri-maddi aktivlər ilkin dəyərlə, yığılmış amortizasiya və hər hansı qiymətdəndüşmə üzrə zərər çıxılmaqla uçota alınır. Faydalı istifadə müddəti qeyri –müəyyən olan qeyri maddi aktivlər istisna olmaqla bütün digər qeyri – maddi aktivlərin amortizasiyası faydalı istifadə müddətləri üzrə düz xətt metodundan istifadə etməklə Mənfəət və Zərər haqqında Hesabatda əks olunur. Kapitallaşdırılmış qeyri –maddi aktivlər üzrə sonrakı məsrəflər yalnız aid olduğu xüsusi aktivdə əks olunan gələcək iqtisadi səmərəni artırarsa kapitallaşdırılır.

### Aktivlərin qiymətdən düşməsi

Torpaq, tikili və avadanlıqlar əgər hadisə və şəraitdəki dəyişikliklər göstərərsə ki, aktivin balans dəyərini bərpa edilə bilinmir, o zaman qiymətdən düşməsinin olub –olmamasının müəyyən olunması üçün nəzərdən keçirilir. Aktivin balans dəyəri onun bərpa olunan dəyərindən çox olarsa, o zaman Mənfəət və Zərər haqqında hesabatda qiymətdən düşmə üzrə zərər tanınır.

Hər bir hesabat tarixində aktivlər onların qiymətdən düşə biləcək hər hansı göstəricisinin olub – olmamasını müəyyən etmək üçün qiymətləndirilir.

Əgər belə göstərici mövcuddursa, həmin aktivin ehtimal edilən bərpa edilən dəyəri müəyyən olunur və Mənfəət və Zərər haqqında hesabatda qiymətdən düşmə üzrə zərər tanınır.

## MÜHÜM MÜHASİBAT SİYASƏTLƏRİ ( DƏVAMI )

### Xarici valyutalar

Xarici valyutada həyata keçirilən əməliyyat ilkin tanınma zamanı əməliyyat valyutasında, xarici valyutada olan məbləğə əməliyyat valyutası ilə xarici valyuta arasında əməliyyatın keçirildiyi tarixdə mövcud olan spot məzənnəsini tətbiq etməklə uçota alınır. Balans hesabatı tarixinə xarici valyuta ilə olan monetar maddələr hesabat tarixinə məzənnədən istifadə etməklə yerli valyutaya çevrilir. Məzənnə fərqlərindən yaranan gəlir və xərclər Mənfəət və Zərər haqqında hesabatda əks olunur. Maliyyə hesabatlarının hazırlanması üçün hesabat dövrünün sonunda istifadə edilmiş məzənnələr aşağıdakı kimi olmuşdur.

| 31 Dekabr 2018 ci il | | | 31 Dekabr 2017 cı il | | |
|---|---|---|---|---|---|
| USD | = | AZN 1.7000 | USD | = | AZN 1.7001 |
| RUB | = | AZN 0.0245 | RUB | = | AZN 0.0295 |
| EURO | = | AZN 1.9468 | EURO | = | AZN 2.0307 |

Xarici valyuta ilə olan qeyri –monetar maddələr ədalətli dəyərin təyin edildiyi tarixdə mövcud olan məzənnəyə əsasən yerli valyutaya çevrilir.

## 4 Torpaq, tikili və avadanlıqlar

| | Maşın və avadanlıqlar | Hesablama texnikası | Digər əsas vəsaitlər | Nəqliyyat vasitələri | Kapitallaşdırılan avadanlıqlar | Cəmi |
|---|---|---|---|---|---|---|
| *İlkin dəyər* | | | | | | |
| 1 yanvar 2018-cı il tarixə | 262 432.54 | | 135 398.29 | 739 056.51 | 693 | 1 137 580.34 |
| İl ərzində daxilolmalar | 6 296.93 | 35 309.17 | | 84 472.30 | | 126 078.40 |
| İl ərzində silinmələr | - | - | - | (7 040) | (693) | (7 733) |
| Düzəlişlər | (3 625.87) | 110 065.16 | (106 439.29) | | | - |
| **31 Dekabr 2018-ci il tarixə** | **265 103.60** | **145 374.33** | **28 959** | **816 488.81** | | **1 255 925.74** |
| *Toplanmış amortizasiya* | | | | | | |
| 1 yanvar 2018-ci il tarixə | 205 674.44 | | 25 989.26 | 523 455.48 | - | 755 119.18 |
| İl ərzində amortizasiya | 27 467.72 | 5 468.68 | 1 778.87 | 55 320.48 | | 90 035.75 |
| Silinmələr üzrə üzəlişlər | | | | (6 828.77) | | (6 828.77) |
| Düzəlişlər | (82 337.79) | 88 262.36 | (5 924.59) | | | - |
| **31 Dekabr 2018-ci il tarixə** | **150 804.37** | **93 731.04** | **21 843.54** | **571 947.19** | - | **838 326.16** |
| *Qalıq dəyəri* | | | | | | |
| **31 Dekabr 2018-ci il tarixə** | 114 299.23 | **51 643.29** | **7 115.46** | **244 541.62** | | **417 598.78** |
| 31 Dekabr 2017-ci il tarixə | 56 758.10 | - | 109 409.03 | 215 601.03 | 693 | 382 461.16 |

## 5 Qeyri-maddi aktivlər

| | | 31 Dekabr, 2018 | 2017 |
|---|---|---|---|
| **İlkin dəyər** | | | |
| Proqram təminatı: | -İlin əvvəlinə qalıq | **6303.42** | 6 303.42 |
| | -İl ərzində daxilolmalar | **-** | 0 |
| | | **6 303.42** | 6 303.42 |
| **Amortizasiya** | | | |
| | İlin əvvəlinə qalıq | **0** | 0 |
| | İl ərzində hesablanmış amortizasiya | **0** | 0 |
| | İlin sonuna qalıq | **6 303.42** | 0 |

## 6 Ehtiyatlar

| | 31 Dekabr, 2018 | 2017 |
|---|---|---|
| Xammal və materiallar | **352 303.10** | **707 604.68** |
| | **352 303.10** | **707 604.68** |

**7. Dövlət büdcəsindən alacaqlar**

| | 31 Dekabr 2018 | |
|---|---|---|
| | **2018** | 2017 |
| Dövlət büdcəsindən alacaqlar | 296 488.38 | 171 383.28 |
| | **296 488.38** | 171 383.28 |

**8. Debitor borclar və verilmiş avanslar**

| | 31 Dekabr 2018 | |
|---|---|---|
| | 2018 | 2017 |
| Debitor Borclar | **4 028 115.18** | 24 002.25 |
| Verilmiş avanslar | **83 360.10** | 202 565.00 |
| | **4 111 475.28** | 226 567.25 |

**9. Pul vəsaitləri və onların ekvivalentləri**

| | 31 Dekabr 2018 | |
|---|---|---|
| | **2018** | 2017 |
| Kassa | **1 997.61** | 48 579.81 |
| Bank qalqları | **244 711.33** | 96 455.23 |
| ƏDV sub-uçot hesabı | **0.00** | 72 311.39 |
| Digər pul vəsaiti üzrə qalıqlar | - | 161 787.60 |
| | **246 708.94** | 379 134.03 |

**10. Törəmə müəssisələrdə pay sahibliyi**

| | 31 Dekabr 2018 | |
|---|---|---|
| | **2018** | 2017 |
| MCG Technical Solutions MMC (Azərbaycan Respublikası rezidenti) 100% | 1000.00 | |
| | **1000.00** | |

**11. Bölüşdürülməmiş mənfəət**

| | 31 Dekabr 2018 | |
|---|---|---|
| | **2018** | 2017 |
| İlin əvvəlinə | **(1 289 255.0)** | **(754 243.12)** |
| İl ərzində xalis mənfəət/(Zərər ) | **1 660 085.57** | **(478 714.74)** |
| Kapitalın hərəkəti | **(120 927.09)** | **(56 297.17)** |
| | **249 903.45** | **(1 289 255.0)** |

**12. Uzunmüddətli öhdəliklər**

| | 31 Dekabr 2018 | |
|---|---|---|
| | **2018** | 2017 |
| Bank kreditləri | - | - |
| Alınmış borclar | **1 778 466.48** | 924 296.23 |
| Kredit faizi üzrə borclar | - | - |
| | **1 778 466.48** | 924 296.23 |

**13. Qısamüddətli alınmış avanslar**

| | 31 Dekabr 2018 | |
|---|---|---|
| | **2018** | 2017 |
| Görüləcək layihələrə görə sifarişçilərdən alınmış avanslar | **530 410.25** | 2 165 907.20 |
| | **530 410.25** | 2 165 907.20 |

**14. Qısamüddətli kreditor borclar**

| | 31 Dekabr 2018 | |
|---|---|---|
| | **2018** | 2017 |
| Qısamüddətli kreditor borcları | **922 402.70** | 38 016.08 |
| Qısamüddətli bank kreditləri | **1 059 999.47** | |
| İşçi heyyətinə olan kreditor borc | **34 985.81** | |
| | **2 017 387.98** | 38 016.08 |

**15. Dövlət büdcəsinə öhdəlikləri**

| | 31 Dekabr 2018 | |
|---|---|---|
| | **2018** | 2016 |
| Vergi orqanları qarşısında öhdəliklər | **845 160.61** | 1 102.96 |
| DSMF qarşısında öhdəlik | **10 509.13** | 241.58 |
| | **855 669.74** | 1 344.54 |

**16. Gəlirlər**

| | 31 Dekabr 2018 | |
|---|---|---|
| | **2018** | 2017 |
| Tikinti fəaliyyətindən əldə olunmuş gəlir | **10 755 038.50** | 1 339 203.23 |
| | **10 755 038.50** | 1 339 203.23 |

**17. Satışların maya dəyəri**

| | 31 Dekabr 2018 | |
|---|---|---|
| | **2018** | 2017 |
| İstifadə edilən xammal və materialların dəyəri | **6 140 855.23** | 554 707.42 |
| Tikinti işlərinin dəyəri | **1 845 262.53** | 331 210.70 |
| | **7 986 117.76** | 885 918.12 |

**18. Inzibati xərclər**

| | 31 Dekabr 2018 | |
|---|---|---|
| | **2018** | 2017 |
| Əmək haqqı və bununla bağlı xərclər | **425 441.84** | 394 321.24 |
| Əmək haqqı ilə bağlı məcburi dövlət ödənişləri | **95 724.49** | 86 750.67 |
| İcarə haqqı üzrə xərclər | **47 256.00** | 47 256.00 |
| Bank xərcləri | **44 932.53** | 19 993.72 |
| Amortizasiya | **90 035.75** | 107 130.25 |
| Marketinq üzrə xərclər | **110.00** | 110.00 |
| Rabitə xərcləri | **21 404.67** | 21 147.57 |
| Vergi xərcləri | **2 360.75** | 2 355.41 |
| Ofis xərcləri | **51 210.34** | 25 491.26 |
| Sığorta xərcləri | **14 579.05** | 8 326.54 |
| | **793 055.42** | 712 882.66 |

## 19. Qeyri-əməliyyat gəliri/xərci

| | 31 Dekabr 2018 | |
|---|---|---|
| | **2018** | 2017 |
| | **30 391.94** | (51 012.83) |
| Məzənnə üzrə yaranmış fərq | **2 623.72** | 72.30 |
| Digər gəlirlər | **1 483.68** | |
| Əsas vəsaitlərin satışından gəlir/(zərər) | | |
| | **34 499.34** | (50 940.53) |

## 20. Sair məcmu ( zərər) və gəlir

| | 31 Dekabr 2018 | |
|---|---|---|
| | **2018** | 2017 |
| | **(75 349.87)** | |
| Vergi yoxlaması əsasında yaranmış gəlir/(zərər) | **(41 167.40)** | (27 000.00) |
| İşçilərin icarə xərcləri | **(4 409.82)** | (39 073.15) |
| Digər zərərlər | | |
| | **(120 927.09)** | (66 073.15) |